**Əhməd əl-Şovki,**
*Misir Milli Kitabxanası və Arxiv*
*Baş İdarəsinin sədri, professor*

# MİSİR MİLLİ KİTABXANASI: PROBLEMLƏR VƏ YENİ BAXIŞ

***Xülasə:*** *Məruzədə Misir Milli Kitabxanasının yaranması, tarixi, fəaliyyət məqsədləri və iş istiqamətlərindən bəhs edilir. Kitabxananın Papiruslar, Əlyazmalar, İncəsənət, Musiqi, Gözdən əlillər üçün, Sikkələr şöbələri, Özəl kolleksiyalar, Bərpa, mikrofilm və görüntüləmə laboratoriyası, İrs Araşdırma Mərkəzi, Müasir Misir Tarixi Mərkəzi, Bab əl-Xalq kitabxanası, Xüsusi və bağışlanan kitablar katabxanası, Uşaq ədəbiyyatının sənədləşdirilməsi və tədqiqi mərkəzi haqqında ətraflı məlumat verilir.*
***Açar sözlər:*** *Misir, nadir əlyazmalar, papirus, sikkə, özəl kolleksiya, mikrofilm, araşdırma mərkəzi*

Bu gün dünyada Milli Kitabxanalar müxtəlif istiqamətlərdə böyük problemlərlə qarşılaşır. Bu problemlərin ən önəmlisi bilik dairəsinin sürətli şəkildə inkişaf etdirilməsidir. Bununla yanaşı, Milli irsin əhəmiyyəti, onun kitabxanalarda oxucularının ehtiyacları ilə uyğun olan şəkildə qorunub saxlanılması, toplanılması və ictimaiyyətə çatdırılması problemləri də mövcuddur. Burada Misir Milli Kitabxanasının tarixinə, ən əhəmiyyətli müəssisələrinə, orijinal Misir İrsinin qorunması üçün oynadığı rolun əhəmiyyətinə mütənasib olan şəkildə bu müəssisələrin işinin inkişaf etdirilməsində Misirlilərin göstərdikləri səy və çalışmalara toxunacağıq.

**Yaranması**

Milli Kitabxana və Arxiv Baş İdarəsi Ərəb dünyasının ilk milli kitabxanalarından biri hesab edilir. 1870-ci ildə – o dövrdə Divanul-Maarif (Təhsil Nazirliyi) rəhbəri Əli Paşa Mübarəyin təklifi ilə - Xidivvi İsmayil Qahirədə “Misir Xidivvi Kitabxanası”nın təsis edilməsi haqqında sərəncam vermişdir. Kitabxananın işi sultanların, hakimlərin və alimlərin məscidlərə, ibadətxanalara və məktəblərə vəqf (Hədiyyə) etdikləri əlyazmaları və qiymətli kitabları toplamaqdan ibarət idi. Bu da, kitabxananın Avropa Milli Kitabxanalarının üslubunda bir özəyi olmalı idi. Kitabxana Qahirədə Dərbul-Cəmamiz adlanan



*Xidivvi İsmayıl*

məntəqədə Mustafa Fazil Paşanın sarayında yerləşirdi.

1899-cu ildə II Abbas Hilmi Paşa kitabxana binasının və Darul-Asar əl-Arabiyya-nın (Hazırda İslam İncəsənət Muzeyi) təməl daşını qoymuşdur. Bunlar Qədim Fatimi Qahirənin cənub divarının sonu olan Bab əl-Xalq məntəqəsində yerləşirdi. Bina Qədim Qahirənin orijinallığına və qədimliyinə uyğun olsun deyə irsi nümunələri daxil olmaqla Məmluk üslubunda tikilmişdir. 1904-cü ildə kitabxana indiyədək fəaliyyət göstərdiyi bu binaya köçmüşdür.




*Bab əl-Xalq məntəqəsində Darul-Asar əl-Arabiyya və Xidivvi Kitabxanasının təməl daşının qoyulmasında təsis etmə lövhəsi*

1971-ci ildə Kitabxana Bulaq məntəqəsində Nil sahilindəki hazırkı binaya köçdü. Bina layihəsi müasir kitabxana xidmətlərini yerinə yetirmək, böyük sahəsi sayəsində topladığı əlyazmaları, papirusları, mətbu əsərləri, dövri nəşrləri və mikrofilmləri saxlamaq məqsədilə anbarların təmin edilməsi üçün əlverişli tərzdə çəkilmişdir. Bunlarla yanaşı, burada müxtəlif sahələrdə tədqiqatçılar və oxuculara xidmət etmək, milli kitabxana kimi fəaliyyətini yerinə yetirmək üçün böyük oxucu kütləsini yerləşdirə biləcək zallara, ixtisaslaşmış mərkəzlərə və inzibati binalara xüsusi yerlər ayrılmışdır.



*Nil sahilində Milli Kitabxana və Arxiv binası*

**Milli Kitabxananın məqsədləri aşağıdakılardan ibarətdir:**

- Cəmiyyətdə mədəni şüurun yayılması;
- İnsan sivilizasiyasının intellektual, ədəbi və elmi məhsulu ilə tanış olmanı asanlaşdırma;
- Kitabxana xidmətini tədqiqatçılar və oxucu kütləsinə təqdim etmək, kitabxanada olan materialları istər kitabxananın özündə, istərsə də onun nəzdində olan digər kitabxanalarda tanış olmaq və istifadə etmək üçün oxuculara təqdim etmək;
- Ərəb irsini canlandırmaq üçün çalışmaq;
- Kitablar, ilkin nəşrlər, dövri nəşrlər, əlyazmalardan ibarət kitabxananın irsi olan materialların toplanması, qorunması və saxlanılması, təşkili, tanış edilməsi və haqqında elan verilməsi;
- Misirin daxilində müxtəlif kitabxanalar və qurumlar ilə, həmçinin dünya

kitabxanaları, xarici ölkələrdə, xüsusilə də, Ərəb ölkələrində elmi, mədəni qurumlarla elmi və mədəni əlaqələri gücləndirmək. Bu, kitabxananı, onun mətbu əsərlərini və materiallarını tanıdan nəşrlərin və texniki məlumatların mübadiləsi sayəsində həyata keçirilir.

Bu məqsədləri həyata keçirmək üçün bir neçə şöbə yaradılmışdır. Bunlar aşağıdakılardır:

1 - Papiruslar, əlyazmalar və sikkələr dövlət idarəsi

Üç şöbədən ibarətdir:

**A - Papiruslar şöbəsi**

Misir Milli Kitabxanasında dörd mindən artıq papirus var. Bu papiruslar nikah müqavilələri, alqı-satqı müqavilələri, icarə müqavilələri və işçi hesabatları, vergi, cərimə ödənilməsinə dair qeydlər və digər rəsmi və şəxsi əməliyyatları özündə əks etdirir. Tədqiqatçılara layiqli şəkildə təqdim edilməsi üçün bu papiruslar hal-hazırda bərpa edilir və rəqəmsallaşdırılır.



*Kitabxananın kral və sultan hökmlərini daşıyan bir kolleksiyasından nümunə ı*

**B – Əlyazmalar şöbəsi**

Əlyazmalar və rəsm lövhələrini ehtiva edir, bağlı rəflər sistemi ilə hazırlanıb. Tədqiqatçılara əlyazmanın nömrəsini və mövzusunu əldə etməyə kömək edən kataloqlar vardır. O, tədqiqatçılara xidmət etmək və onlara istiqamət vermək üçün mikrofilmə yüklənmişdir. Hal-hazırda bu əlyazmaları İslam Anlayışları Cəmiyyəti ilə birgə əməkdaşlıqla yüksək keyfiyyətli fotoqrafiya ilə rəqəmsallaşdırmaq üçün iddialı bir layihə vardır.



*Misir Milli Kitabxanası kolleksiyasından bir əlyazma*

**C - Sikkələr şöbəsi**

Milli Kitabxana sayı 12 mindən artıq mühüm arxeoloji dəyəri olan pul vahidi və sikkələr kolleksiyası əldə etmişdir. Əksəriyyəti dinar, yarım dinar və dirhəm olan qızıl və gümüş sikkələrdir. Həmçinin kitabxanada müxtəlif metallarla yanaşı, Əməvilər dövründən başlayaraq Məhəmməd Əli Paşanın dövrünə qədər müxtəlif dövrlərdə zərb edilən bir sıra mis, bürünc və kağız pul vahidləri vardır.

**2. Özəl kolleksiyalar şöbəsi**

Müasir bir şöbədir, zamanın tələblərinə və tədqiqatçıların müxtəlifliyinə cavab verməsi üçün yenilənmişdir. Buraya üç şöbə daxildir.

**A - İncəsənət şöbəsi**

İncəsənət qalereyasına müxtəlif texniki mövzularda (tarix, memarlıq, heykəltəraşlıq, rəsm, fotoqrafiya, çap, dekorasiya, kinoteatr, teatr ...) son kitab və istinadlarla dolu kitabxana daxildir.

**B – Musiqi şöbəsi**

Şöbə CD, kasetlər və musiqi notlarının böyük bir kolleksiyasını ehtiva edir. Həmçinin buraya audio CD-ləri, kasetləri və kitabları axtarmaq işini asanlaşdıran kataloq ilə bir sıra kitablar, istinadlar və ensiklopediyalar daxildir.

**C - Gözlərində qüsuru olanlar üçün şöbə**

Buradakı zal əlil insanlar üçün bir çox kitablar, Braille kitablar və bu kitablara dair xeyli sayda CD-ləri və kasetləri ehtiva edir.

**3. Xüsusi və bağışlanan kitablar katabxanası şöbəsi**

Buraya Abbas Akkad, Əhməd Teymur Paşa, Əhməd Zəki Paşa və s. kimi məşhur yazıçılar və mütəfəkkirlərin böyük kolleksiyaları daxildir. Həmçinin buraya inqilabdan sonra Misir hökumətinin ixtiyarına keçən Misir kral ailəsinin kitabları daxildir. Bundan əlavə burada Ərəb və qeyri Ərəb dilində ən böyük və ən nadir əlyazmalar və erkən mətbu əsərlərlə yanaşı fotoalbomlar, Ərəb və Avropa dillərində nəşlərlərdən ibarət çox zəngin fond vardır.s





*Xüsusi və bağışlanan kitablar katabxanası zalı*

**4. Ümumi Kitabxanalar Baş İdarəsi**

Baş İdarə Qahirə şəhərində və bölgələrdə sayı 28-ə çatan ümumi kitabxanalara, uşaq kitabxanalarına və hər 15 gündə bir dəfə Böyük Qahirədə 30 başqa-başqa yerlərdə dayanan səyyar kitabxanalara texniki nəzarət edir. Buraya mərkəzləşdirilmiş və birləşdirilmiş kataloqlar şöbəsi də daxildir.

Səyyar kitabxanalar şöbəsinə daxildir:

- Qahirə kitabxanalarının idarə edilməsi.
- Regional kitabxanaların idarə edilməsi.
- Mərkəzi kataloqlaşdırma şöbəsinin idarə edilməsi




*Səyyar kitabxana Ciza məntəqəsində yerləşən zooparkda*

**5. Bab əl-Xalq kitabxanası**

Xidivvi II Abbas Hilmi bu binanın təməl daşını 1899-cu ilin yanvarında qoymuşdur. 1904-cü ildə isə fəaliyyət göstərməyə başlamışdır. 1971-ci ilədək tədqiqatçılara və oxuculara xidmət edərək milli kitabxana kimi fəaliyyət göstərmişdir. 1971-ci ildə Kitabxana Bulaq məntəqəsində Nil sahilində yerləşən hazırkı binaya köçmüşdür. Müasir dünya sisteminə uyğun mədəniyyət və maarifləndirmə mayakı olması məqsədi ilə Bab əl-Xalqda tarixi binanın memarlıq və mədəni görkəmini qaytarmaq üçün 2000-ci ildə təmir-bərpa işləri başlamışdır. Təmir-bərpa işləri altı ildən çox davam etmişdir.

Binanın inkişafı layihəsinə daxil idi:

- Ərəb, Türk, Fars kitabxanaları əlyazmalarını, bir sıra İslam dövrü papiruslarını, sikkələri və erkən nəşləri ehtiva edən ixtisaslaşmış Şərqşünaslıq kitabxanasına çevirmək.

- Bununla yanaşı, Misirdə və Ərəb regionunda yeganə olan İrs muzeyini yaratmaq. Muzeyə nadir əlyazmalar, Müqəddəs Quranlar, İslam dövrü papirusları, tarixi dəyərə malik sənədlər, sikkələr, xəritələr və musiqi alətlərindən nümunələr daxildir. Bu eksponatlar Milli Kitabxananın Ərəb mədəniyyətinə göstərdiyi böyük xidmətlərin sübutudur.

Bab əl-Xalqda yerləşən Misir Milli Kitabxanasının binası informasiya və kitabxanalar dünyasında böyük inkişafa uyğun fəaliyyət göstərməsi üçün tarixi memarlıqla müasir ştrixləri və yeni texnologiya üslubunu özündə birləşdirmişdir. Buna görə də, kitabxana binasının son görkəmi qədimliyi qoruyaraq müasir ştrixlərin olmasına görə bir memarlıq şah əsəri olmşudur.







*Bab əl-Xalqda yerləşən Milli Kiatabxananın binası*

Açıq rəflər sistemi vasitəsilə irs kitabları, Şərq dillərinə dair kitablar, ensiklopediyalar və biblioqrafiyalarla tanış olma fürsətini oxuculara vermək üçün tədqiqat və qiraət zalları yaradılaraq ən yüksək səviyyədə təchiz olunmuşdur. Bununla yanaşı, elektron qiraət zalları ən müasir kompyüterlərlə təchiz olunmuş, bu öz növbəsində oxuculara kitabxananın internetə yerləşdirilmiş əlyazmaları və papirusları ilə tanış olma imkanı vermişdir.

Kitabxanada muzey eksponatlarının sərgisini təşkil etmək üçün xüsusi yerlər ayrılmışdır. Eksponatlar ən nadir və ən qiymətli irs toplusundan ibarətdir. Bu eksponatlar vasitəsilə Milli Kitabxana din, tibb, astronomiya, ədəbiyyat və dilçiliyə dair Ərəb, Türk və Fars dillərində yazılmış müxtəlif sahələri əhatə edən əlyazmalardan, xəttinin keyfiyyəti, dekorasiyasının zərifliyi, qravürlərinin gözəlliyi ilə xarakterizə olunan və qızıl suyu ilə örtülmüş Müqəddəs Quran kitablarının əlyazmalarından, Ərəb xəttatlığı papirusları və lövhələrdən, erkən mətbu əsərlər və nəşrlərdən, xəritələrdən, pul vahidləri, sikkələr, muzeyə gələnlərin ilk dəfə gördüyü muzey eksponatlarından ibarət Ərəb və İnsan mədəniyyətinin irs olaraq qoyduqlarını təqdim edir. Muzeyin sərgi zalları ən son texniki səviyyədə hazırlanmışdır.

**Bərpa, mikrofilm və görüntüləmə laboratoriyası**

Restavrasiya və bərpa etmə laboratoriyası kitabxananın əlyazmalarını, nəşrlərini və nadir kitablarını qoruyub saxlamaq, bundan əlavə irsin dəyərinin ictimaiyyətə çatdırılması və bununla necə məşğul olmağı, onu qoruyub saxlamaq işini öz üzərinə götürür. Laboratoriya həmçinin nadir əlyazma və nəşlərin mikrofilmini, eləcə də bütün nadir əlyazma və nəşlərin şəklini çəkir.

**Elmi Mərkəzlərin Mərkəzi İdarəsi**

Altı elmi mərkəzdən ibarətdir, ən əsasları bunlardır:

**1 - İrs Araşdırma Mərkəzi**

Mərkəzin tarixi kökləri:

İrs araşdırma mərkəzi 1870-ci ildən hal-hazıradək Misir Milli Kitabxanasının nəzarəti altında olan irs komitə və şöbələrinin davamçısı hesab edilir. Milli İrs Araşdırmaları Mərkəzi 1966-cı ildə yaradılmışdır. Bu mərkəz İrs Araşdırma Mərkəzi kimi tanınır və bu günə kimi fəaliyyət göstərməkdədir. Mərkəzə bəzi böyük tədqiqatçılardan və irs tədqiqatları, araşdırmaları ilə məşğul olan alimlərdən ibarət elmi komitə nəzarət edir. Həmçinin mərkəzdə müxtəlif ixtisaslı bir neçə elmi komitə fəaliyyət göstərir. Bunlardan ən önəmliləri aşağıdakılardır:

1. Ərəb dili və ədəbiyyatı Komitəsi
2. İslam Araşdırmaları Komitəsi
3. İslam Tarixi Komitəsi
4. Ərəb Elmi İrs Komitəsi

Hər bir komitəyə ixtisaslaşmış professorun nəzarəti altında çalışan bir qrup tədqiqatçı daxildir.

**Müasir Misir Tarixi Mərkəzi**

Müasir Misir Tarixi Mərkəzi Misirin yeni və müasir tarixini öyrənən yeganə ixtisaslaşmış mərkəzdir. Mərkəz iyunun 25-i 1964-cü ildə Mədəniyyət və Milli Rəhbərlik naziri dr. Məhəmməd Əbd əl-Qadir Hatəmin qərarı əsasında təsis edilmişdir. Həmin vaxt mərkəz Məlumat Xidmətinin nəzdində idi və "Milli Tarix Araşdırmaları Mərkəzi" adlanırdı.

1967-ci il iyulun 27-də Nazirlik mərkəzə "Arxiv və Misirin Müasir Tarixi Mərkəzi" adının verilməsinə dair 145 saylı fərman verdi. Bundan sonra mərkəz birbaşa o vaxt Mədəniyyət naziri dr. Sərvət Okaşanın tabeliyinə keçdi və onu idarə etmək üçün Qahirə Universitetinin yeni tarix üzrə professoru Məhəmməd Ənis seçildi. 1968-ci ildə isə mərkəz Misir Milli Kitabxanası və Arxivin nəzdinə verildi. Mərkəzə elmi dərəcələr əldə etmiş və Misir universitetlərində tarix fənni üzrə tanınmış professor olmuş, bəziləri isə universitetlərdə yuksək vəzifə tutmuş tədqiqatçılar daxil oldu.

1996-cı ildə ixtisasların ayırd edilməsi və mərkəzlə Milli Arxiv Sənədlər Kitabxanası ilə dəyişdirilməsi məqsədi ilə "Arxiv Sənədlər" sözü ləğv edildi və

mərkəzin hazırkı adı “Misir Müasir Tarixi Mərkəzi” oldu. İxtisaslaşmış Elmi Mərkəzlərin Baş İdarəsi Milli Kitabxana və Arxivin Baş İdarəsinə tabedir. Bu illər ərzində mərkəzin canlandırılmasında öz töhfələrini vermiş, həm məgistr, həm də doktorluq elmi dərəcələrini əldə etmiş xeyli sayda tədqiqatçı mərkəzə işə qəbul olunmuşdur.

**3. Uşaq ədəbiyyatının sənədləşdirilməsi və tədqiqi mərkəzi**

Mərkəz Qahirədə Məmluklar meydanında Mənil əl-Rauda adlı yerdə ayrıca binada yerləşir. 1988-ci ildə inşa edilmişdir. Mərkəz Misirli uşaqlarla bağlı bütün təhsil, istiqamətləndirmə, qiymətləndirmə və tədqiqat məsələləri ilə maraqlanır. Mərkəzin hədəfləri aşağıdakılardır:

- Misirdə və Ərəb dünyasında uşaq ədəbiyyatı ilə bağlı bütün materialları toplamaq və sənədləşdirmək
- Uşaq ədəbiyyatı sahəsində tədqiqatçıların işini asanlaşdırmaq
- Mərkəzə gələnlərə tədqiqat xidmətləri təqdim etmək. Mərkəzə əlavə edilmiş tipik kitabxana vasitəsilə uşaqlara xüsusi xidmətlərin göstərilməsi.

Mərkəzə uşaq sahəsində ixtisaslaşmış professorlardan ibarət Elmi Komitə nəzarət edir.

Mərkəz öz ixtisası sahəsində bir neçə elmi əsər nəşr etdirmişdir. "Uşaq Ədəbiyyatı Araşdırmalar və Tədqiqatlar" adlı elmi jurnalının bir neçə nömrəsini çap etdirmişdir.



*Uşaq Ədəbiyyatının Sənədləşdirilməsi və Tədqiqi Mərkəzi*

**1- Bərpa, Təmir və Mikrofilm Mərkəzi**

Misir Milli Kitabxanasında əlyazmaların, kitabların və mədəniyyətə dair eksponatların qorunması üçün bərpa-təmir işləri həyata keçirilir. Bu iş 1974-cü ildə Bərpa, Təmir və Mikrofilm Mərkəzinin yaradılması ilə elmi və müntəzəm şəkildə təşkil olunmuşdur. Mərkəzin yaradılmasından məqsəd əlyazmaların və nadir kitabların qorunması, uzun illər ərzində tələf olmuş əlyazma və kitabların bərpasıdır və bu əməliyyat Misir Milli Kitabxanasının ən başlıca məqsədlərindən biridir. Professor Yusif Şövqi Mərkəzin tikilməsinə, araşdırma laboratori-

yalarının, Bərpa və Mikrofilm Mərkəzinin ilk özəlinin qoyuluşuna, avadanlıq və ən son bərpa və təmir üsullarını işçilərə öyrətmək üçün xarici ekspertlərin (Rus və İtaliya) dəvət olunması işlərinə rəhbərlik etmişdir. Bərpa Mərkəzində işlər yalnız əllə görülürdü. 1979-cu ildə Mərkəz "Mədəni və Bədii Kolleksiyaların Bərpasının və Qorunmasının Tədqiqatları Elmi Jurnalı" adlı elmi jurnal nəşr etdi. Bu işə o zaman Bərpa Tədqiqatları Mərkəzinin müdiri Dr. Hüsam əl-Din Abdul Həmid rəhbərlik etmişdir.





*Kolleksiyaların qorunması və bərpası işləri*

**Milli Kitabxana Bərpa Mərkəzinin inkişaf etdirilməsi**

İnşa edildikdən 20 il sonra Mərkəz Misir və İspaniya Mədəniyyət Nazirlikləri (Misir Milli Kitabxanası, Mədəni İnkişaf Fondu və İspan Hökuməti Xarici əlaqələr şöbəsi) arasında birgə əməkdaşlığın nəticəsində yeniləndi. Belə ki, binaların infrastrukturu bərpa edildi və iki hissəyə bölündü (İdarə sahəsi, mərkəzin kitabxanası, Mikrofilm Mərkəzi və onun kitabxanası və laboratoriya sahəsi, bərpa və qeydiyyat şöbəsi). Bina hazır olduqdan sonra son avadanlıq və mebellə tichiz olundu. Mərkəz avtomatik təmir avadanlıqları ilə təmin edildi (laminasiya və möhürləmə maşını). Mərkəz 1997-ci ildə İspan ekspertlərinin işçilərə yeni avadanlıqlarda çalışma təlimi keçdikdən sonra fəaliyyətə başladı. 2001-ci ildə buraya Papirus və Perqament Bərpası şöbəsi əlavə edildi. Mərkəzdə mövcud müxtəlif fənnlər üzrə ixtisaslaşmış, seçilmiş tədqiqatçılar çalışır. Bərpa və Təmir Mərkəzinə xüsusi Elmi Komitə nəzarət edir.

**İstehsalat təcrübəsi:**

Kitabxana universitet tələbələri üçün formal təlim keçirir. Elmi həyatda nəzəri yanaşmanın praktiki tətbiqi üçün Kitabxanaçılıq bölməsinin tələbələrini qəbul edir. Bu isə üç aydan bir həftədə bir dəfə tədris ili zamanı baş tutur. Tələbələrə bu fənn üzrə elmi rəhbərin qiymətləndirilməsi sənədi və kitabxana tərəfindən təsdiqlənmiş təlim sertifikatı verilir. Bu sertifikat kitabxanaların işində təcrübə sənədini əvəz edir. Bu işlərə Planlaşdırma və İzləmə Baş İdarəsi nəzarət edir.




*Restavrasiya və Kitabxanaçılığa dair təlim işləri*

**Rəqəmləmə işləri:**

Dövrün tələblərini nəzərə alaraq oxuculara elektron versiyanı təqdim etmək üçün ən son rəqəmsal skanerlərdən istifadə olunaraq kitabların, dövri nəşrlərin və kitabxananın bütün kolleksiyalarının rəqəmləmə layihəsinə start verilmişdir. Bu iş effektiv şəkildə fəaliyyət göstərən skaner laboratoriyalarının bir çoxu vasitəsilə həyata keçirilir. Bu günə qədər 12 mindən artıq kitab, minlərlə xəritələr və dövri nəşrlər rəqəmsallaşdırılmışdır və bu böyük layihə üzərində işlər aparılır.




**Elektron oxuma:**

Rəqəmləşdirilmiş nüsxələrin qiraəti üçün kitabxanada elektron mütaliə zalı oxucuların istifadəsinə verilmişdir. Elektron mütaliə zalı bütün Misir və əcnəbi tədqiqatçılarına xidmət etmək üçün ən yeni kompüter və müasir texnoloji vasitələrlə təchiz olunmuşdur.



*Skaner və elektronlaşdırma prosesi*

 

*Oxucular üçün nəzərdə tutulmuş elektron mütaliə zalı*

Deyilənlərdən Milli Kitabxananın dövrün tələbləri ilə ayaqlaşması, irsini qoruması cəhdləri və dünyanın bütün nöqtələrindən buraya gələn tədqiqatçı və oxuculara ən yüksək xidmət göstərmə arzusu açıq-aydın görünür.

**The National Library of Egypt: challenge and new vision**

***Resume:*** *The article provides information about the establishment of the National Library of Egypt, its history, purposes of activities, and areas of work. It contains detailed information about the Papyrus, Manuscripts, Art, Music, For visually impaired, and Coins departments, Private collection, Restoration, microfilm and imaging laboratory, Heritage Research Center, Modern Egyptian History Center, Bab-al Khalq library, The library of private and donated books, Documentation and Research Center of Children's literature.*
***Key words:*** *Egypt, rare manuscripts, papyrus, coin, private collection, microfilm, research center*